

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 28 (21.438)

*12 fevral 2016-cı il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*12 fevral Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin yarandığı gündür*

## Muxtar respublikada müasir vergi sistemi formalaşıb



*Fevralın 12-də Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin yaradılmasından 16 il ötür.*

Bazar iqtisadiyyatının inkişaf etdirilməsində vergi orqanlarının rolunu yüksək qiymətləndirən ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu sahədə ardıcıl tədbirlər həyata keçirilmişdir. Çevik vergi siyasətinin aparılması ulu öndərimizin müəyyənləşdirdiyi iqtisadi strategiyanın tərkib hissəsi idi. Buna görə də ümummilli liderimizin 2000-ci il 11 fevral tarixli Fərmanına əsasən, Baş Dövlət Vergi Müfəttişliyinin bazasında dövlətin vergi siyasətinin həyata keçirilməsini, dövlət büdcəsinə vergilər və digər daxilolmaların vaxtında və tam yığılmasını təmin edən və vergitutma sahəsində dövlət nəzarətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı – Azərbaycan Respublikası Vergilər Nazirliyi yaradıldı. Yeni struktur tezliklə sistemli, operativ, koordinasiya və güclü təşkilati-idarəetmə mexanizmi kimi müsbət keyfiyyətləri özündə birləşdirdi. Həmin dövrdə ölkəmizdə vergi münasibətlərinin tənzimlənməsi sahəsində sistemsizlik və boşluqların aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi qarşıda duran ən vacib vəzifələrdən idi. Buna görə də 2001-ci il yanvarın 1-də Azərbaycan Respublikasının Vergi Məcəlləsi qəbul edildi.

Ümummilli liderimizin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bütün istiqamətlərdə, o cümlədən vergi siyasəti sahəsində də uğurla davam etdirilir. Ötən dövrdə ölkəmizdə güclü vergi inzibatçılığı formalaşdırılmış, geniş təhlil bazasına malik informasiya sistemləri qurulmuşdur. Vergi xidmətində Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin işə salınması vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergi sistemində elektron sənəd dövriyyəsinin tətbiqinə, məlumatların işlənməsi sürətinin dəfələrlə artmasına, operativ vergi nəzarətinin qurulmasına və digər qurumlarla inteqrasiyaya yol açmışdır.

Ölkəmizin vergi sistemində bu gün də mühüm islahatlar həyata keçirilir. Ötən dövrdə Azərbaycan iqtisadiyyatının dinamik inkişafına paralel olaraq Vergi Məcəlləsinə də müvafiq dəyişikliklər edilmiş, sahibkarların vergi yükü azaldılmış, vergi dərəcələrinin optimal həddədək aşağı salınması təmin olunmuşdur. Hazırda mənfəət vergisinin dərəcəsi 20 faiz, əlavə dəyər vergisinin dərəcəsi 18 faiz, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 25 faiz, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin vergiyə cəlb edilən gəlirlərindən tutulan gəlir vergisinin dərəcəsi 20 faiz təşkil edir ki, bu da bir çox ölkələrlə müqayisədə xeyli aşağıdır. Həmçinin kənd təsərrüfatı üzrə sahibkarlar 2001-ci il 1 yanvar tarixindən torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib və bu güzəştin müddəti məcəllədə olan son dəyişikliklərə əsasən 2019-cu ilə qədər uzadılıb. Məktəbəqədər təhsil-tərbiyə müəssisələri, ödənişli təhsil də əlavə dəyər vergisindən azad olunub.

Ölkəmizin vergi sistemində aparılan islahatlar muxtar respublikamızda da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 12 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi yaradılmış, nazirliyin Əsasnaməsi təsdiq edilmişdir. Fəaliyyət göstərdiyi 16 il ərzində nazirliyin maddi-texniki bazası xeyli gücləndirilmiş, nazirlik və onun rayon şöbələri, Naxçıvan Şəhər Vergilər İdarəsi üçün müasir standartlara cavab verən binalar tikilərək istifadəyə verilmiş, əməkdaşlar üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Muxtar respublikada həyata keçirilən uğurlu iqtisadi siyasət nəticəsində vergi daxilolmaları üzrə proqnoz tapşırıqlar hər il artıqlaması ilə icra olunmuşdur.

Muxtar respublikada sahibkarlığa dövlət dəstəyi nəticəsində əlverişli biznes və investisiya mühiti yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən verilmiş tapşırıqlar iş adamlarının fəaliyyəti üçün daha geniş imkanlar açmışdır. 2008-ci il yanvarın 1-dən etibarən biznesə başlama prosedurlarının daha da sadələşdirilməsi, sahibkarlıq subyektlərinin "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyatının cəmi 2 günə aparılması, bu sahənin inkişafına göstərilən dövlət qayğısı sahibkarlıq subyektlərinin sayının sürətlə artmasına səbəb olmuşdur. Belə ki, 2008-2015-ci illər ərzində muxtar respublika üzrə 209 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına, 13 min 90 fiziki şəxs isə sahibkarlıq uçotuna alınmışdır. Orta və iri sahibkarlıq obyektlərinin işə salınması, sahibkarların işinə qanunsuz müdaxilələrin aradan qaldırılması, bank və kredit təşkilatları tərəfindən onlara verilən kreditlərin həcminin ildən-ilə artırılması, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən tədbirlər nəticəsində özəl sektordan vergi daxilolmalarının ümumi vergi daxilolmalarında xüsusi çəkisi 64,5 faizə yüksəlmişdir. Bu da bir il əvvəlki göstəricidən 3,8 faiz artıqdır.

Muxtar respublikada vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişləndirilməsi diqqət mərkəzində saxlanılır. Belə ki, vətəndaşlar və vergi ödəyiciləri ilə vergi orqanları arasında elektron sənəd mübadiləsini təmin etmək məqsədi ilə 2010-cu il mart ayının 1-dən etibarən "onlayn kargüzarlıq" sisteminin tətbiqinə başlanılmışdır. Bu sistem sayəsində vətəndaşlar vergi orqanına göndərdikləri sənədin vergi orqanı daxilində hərəkətini "onlayn" rejimdə izləyə bilirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq vergi orqanlarında elektron xidmətlərin tətbiqinə başlanılmışdır.

Dünyanın inkişaf etmiş ölkələrində istifadə olunan yeni metodların tətbiqi vergi sisteminin daha etibarlı fəaliyyətinə və vergi ödəyicilərinin rahatlığına təminat verir. Bu mənada, "Elektron bəyannamə" sistemi vergi orqanları ilə vergi ödəyiciləri arasında əlaqələrin tam şəffaf prinsiplər üzərində qurulmasına şərait yaratmışdır. Hazırda muxtar respublikada vergi ödəyiciləri tərəfindən bütün bəyannamələr elektron formada təqdim olunur. Həmin bəyannamələr operativ olaraq kameral vergi yoxlamalarından keçirilir və qanunauyğun tədbirlər görülür. 2015-ci ildə vergi ödəyiciləri tərəfindən təqdim olunmuş 23 min 836 vergi bəyannaməsi vergi orqanlarında kameral və analoji qaydada yoxlanılmış, 368 bəyannamədə vergilərin düzgün hesablanmaması aşkar edilmiş, 24 min 579 manat məbləğində vergi yenidən hesablanaraq büdcəyə ödənilmişdir.

Bu gün muxtar respublikanın vergi sistemində güclü kadr potensialı da formalaşdırılır, vergi orqanlarına xidmətə layiqli namizədlərin seçilməsi müsabiqə yolu ilə aparılır. Bu sahədə görülən işlərin nəticəsidir ki, son illər ərzində 58 nəfər müsabiqə yolu ilə vergi orqanlarında xidmətə qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov vergi orqanları əməkdaşlarının qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Azərbaycanda özəl bölməyə göstərilən diqqət və qayğı, vergi orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, onların qarşılıqlı fəaliyyətinin hüquqi baza üzərində tənzimlənməsi nəticəsində ölkəmiz inkişaf edir. Ona görə də vergi orqanlarında çalışanlar hüquqi bazanın mənimsənilməsinə ciddi fikir verməli, sahibkarlarla iş prinsiplərini operativ nəzarət formasında həyata keçirməlidirlər".***

***Vergilər Nazirliyinin kollektivi qarşıya qoyulan tapşırıqların icrasını bundan sonra da layiqincə yerinə yetirəcək, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

## Azərbaycan Respublikası Prezidentinin "Heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Sərəncamı muxtar respublikada icra olunur

Heyvandarlıqda damazlıq işinin və qaramalın cins tərkibinin yaxşılaşdırılması, baytarlıq xidmətinin düzgün təşkili və süni mayalandırma tədbirləri vacib amildir. Son illər ölkəmizdə bu məsələ diqqət mərkəzində saxlanılır. "Heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiyanın verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Muxtar respublikada da qaramalın cins tərkibinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görülür. Son illər xarici ölkələrdən 1937 baş damazlıq cins mal-qara gətirilərək lizinq yolu ilə satışı həyata keçirilmişdir. Təkcə 2015-ci ildə süni mayalanma yolu ilə muxtar respublikada 3 min 411 baş buzov doğulmuşdur. Dövlət başçısının "Heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Sərəncamı muxtar respublikada bu sahəyə olan marağı daha da artırmışdır.

Muxtar respublikada süni mayalanma yolu ilə alınmış hər buzova görə subsidiyanın verilməsi Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 yanvar tarixli qərarı ilə təsdiq edilmiş qaydaya uyğun həyata keçirilir. Sərəncamın icrası məqsədilə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti tərəfindən komissiya yaradılmışdır. Yaxın vaxtlarda subsidiyanın ödənilməsinə başlanılacaqdır.

**"Şərq qapısı"**

## Bank sektoru yeni ilə uğurla başlayıb

*Muxtar respublikamızda stabil iqtisadi inkişaf bank sektorunun fəaliyyətində də müşahidə olunmaqdadır. Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata görə, cari ilin ilk ayının nəticələri bankların fəaliyyətinin məqsədəuyğun şəkildə həyata keçirildiyini, muxtar respublikada maliyyə sabitliyinin təmin edilməsində onların rolunun artdığını deməyə əsas verir.*



Muxtar respublikada fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 fevral 2016-cı il tarixə iqtisadiyyata kredit qoyuluşunun ümumi həcmi 119 milyon 830 min manat, o cümlədən qısamüddətli kreditlərin həcmi 16 milyon 700 min, uzunmüddətli kreditlərin həcmi isə 103 milyon 130 min manata çatıb. Nəticədə, ötən ilin müvafiq dövrü ilə müqayisədə kredit qoyuluşunun ümumi həcmində 18,9 faiz artım olub.

Kreditlər, əsasən, aqrar sahənin maliyyələşdirilməsinə, ixracın təşviq olunmasına və daxili bazarın müdafiəsinə, habelə kiçik və orta sahibkarlığın maliyyə çıxış imkanlarının genişləndirilməsi ilə real sektorun inkişafına yönəldilib. Təkcə 2016-cı ilin yanvar ayı ərzində muxtar respublikada verilən 2 milyon 439 min manat kreditin 52,2 faizi, yəni 1 milyon 273 min manatı kənd təsərrüfatının payına düşür. Bununla yanaşı, qeyd olunmalıdır ki, Naxçıvan Muxtar Respublikası üzrə verilən kredit faizlərinin orta göstəricisi ölkənin bütün regionları ilə müqayisədə ən aşağı göstəriciyə malikdir.

Kreditləşmə ilə yanaşı, bu dövr ərzində əhali tərəfindən banklara yerləşdirilən əmanətlərin həcmində də artım müşahidə edilib. Belə ki, əmanətlərin ümumi həcmi 7 milyon 590 min manata, o cümlədən xarici valyutada olan əmanətlərin həcmi 5 milyon 146 min manata çatıb. Təkcə yanvar ayında ötən ilin müvafiq dövrünə nisbətən əmanətlərin ümumi həcmində 9,3 faiz artım olub.

Bankların qarşısına qoyulan vəzifələr sırasında muxtar respublikada nağdsız ödənişlərin həcminin artırılması xüsusi yer tutur. Məlumatda bildirilir ki, cari ilin ilk ayında əldə olunan statistik göstəricilər bu sahədə də pozitiv irəliləyişlər olduğunu deməyə əsas verir. Belə ki, bu ilin yanvar ayında muxtar respublika üzrə nağdsız ödənişlərdə ən yüksək göstərici qeydə alınaraq ümumi ödəniş həcmi 2 milyon 517 min manata çatıb. Bu sahədə onlayn ödənişlərin artımı diqqəti cəlb edir. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə POS-terminallarla aparılan əməliyyatlar üzrə ödəniş həcmində 10,5 faiz, internet və digər ödəniş vasitələri ilə aparılan əməliyyatlarda isə 247 faiz artıma nail olunub. Ümumilikdə, hazırda muxtar respublikada 1069 ədəd POS-terminal və 99 bankomat əhalinin istifadəsindədir. Bütün bunlar deməyə əsas verir ki, bank sektoru gələcəkdə yüksək ödəniş mədəniyyətinin və etibarlı maliyyə bazarının formalaşdırılmasına öz töhfələrini verəcəkdir.

**✍ Əli CABBAROV**

# Kəngərli sürətlə inkişaf edir, müasirləşir

*Bütün yaşayış məntəqələri abadlaşdırılan rayonda ötən il də uğurlu nəticələr əldə edilib*

***Muxtar respublikamızda aparılan davamlı quruculuq işləri paytaxt Naxçıvan şəhəri də daxil olmaqla bütün bölgələrin simasını dəyişib, insanların rahat yaşayış şəraiti təmin edilib. Bu yaxınlarda yolumuzu Kəngərli rayonuna salanda, biz burada da əhalinin firavanlığı üçün görülmüş kompleks işlərin şahidi olduq. Bölgədə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirlərinin, reallaşdırılan iqtisadi layihələrin rayona gətirdiyi yenilikləri gördük, zəhmətkeş kəngərlilərin günbəgün yaxşılaşan həyat səviyyəsi ilə yaxından tanış olduq.***



Ölkəmizin inzibati-siyasi xəritəsində kiçik bir yer tutan Kəngərli bölgəsi binayi-qədimdən özünün maddi-mədəniyyət nümunələri, əvəzsiz tarixi-memarlıq abidələri, vətəninə sədaqətli elm, mədəniyyət, hərb xadimləri ilə daim seçilib. Bu gün bölgənin bütün yaşayış məntəqələri abadlaşıb. Yeni tikililər qədim Kəngərliyə yeni görkəm gətirib. Böyük dövlət qayğısı bu rayonu abad və füsunkar bir yurd yerinə çevirib.

Burada olarkən Kəngərli rayonunun əvvəlki görkəmini də xatırlayırdım. Düşünürdüm ki, qısa zaman kəsiyində gör necə böyük işlər görülüb. Bütün bunlar böyük zəhmət, fədakarlıq, vətənsevərlik, işgüzarlıq tələb edir. Məhz həmin amillərin təsiri ilə Naxçıvan tarixində mühüm izi olan Kəngərlilərin adını yaşadan bu bölgəmiz başdan-başa abad, möhtəşəm bir yurd yerinə çevrilib. Naxçıvan-Sədərək magistral yolunun üzərində yerləşən rayon mərkəzində bir-birindən gözəl inzibati binalar, rahat yollar, mədəniyyət və istirahət parkı, mədəniyyət evi və digər ünvanlar bu əraziyə möhtəşəm bir gözəllik bəxş edib. Son illərdə bütün yaşayış məntəqələrində müxtəlif infrastruktur layihələrinin həyata keçirilməsi, rayondaxili və kəndarası avtomobil yollarının yenidən qurulması, yaşıllıq zolaqlarının yaradılması Kəngərli rayonunda həyata keçirilən mühüm tədbirlərdəndir.

### Kəngərlinin quruculuq xəritəsinin yeni ünvanları

Qədim diyarımızın hansı ünvanına – istər rayon mərkəzlərinə, istərsə də ən ucqar dağ və sərhəd yaşayış məntəqələrinə qədəm qoysaq, quruculuğun bəhrələrini görərik. Elə götürək Naxçıvan-Sədərək magistral yolunu. Dünya standartlarına cavab verən bu böyük layihə "Mədəniyyət yoldan başlanır" deyimini yada salır. Bu deyimi Kəngərlinin rayon mərkəzi Qıvraq qəsəbəsi də daxil olmaqla bütün kəndlərinə gedən yollara da şamil etmək olar. Elə Kəngərli rayonunun kəndlərindəki ara yolları gördüyümüzdə də qəlbimiz dağa döndü.

Buradan da görünür ki, rayonda müasir və rahat yol şəbəkələrinin yaradılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. 2015-ci ildə ümumi uzunluğu 16 kilometr olan Qıvraq-Püsyan-Xanlıqlar avtomobil yoluna və Yurdçu kəndində 4,5 kilometr kənddaxili yola asfalt örtük salınıb, əsas magistralda və rayonun Qıvraq qəsəbəsində, Qarabağlar, Çalxanqala, Xok kəndlərində daxili yollarda təmir işləri aparılıb.

Təhsil millətin gələcəyi, taleyini müəyyənləşdirən əsas amildir. Müasir təhsil sisteminin yaradılması istiqamətində görülən işlər Kəngərli rayonunu da əhatə edib. Ötən il mayın 1-də Kəngərli Rayon Təhsil Şöbəsinin yeni inzibati binası istifadəyə verilib. Kəngərli Rayon Təhsil Şöbəsinin tabeliyində 12 ümumtəhsil məktəbi və 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Ümumtəhsil məktəblərindən 12-si

*Yurdçu kəndindən görünüş*



də müasir binada yerləşir. Təhsil Şöbəsinin yeni inzibati binasında yaradılan şərait rayonda təhsilin günün tələbləri səviyyəsində qurulmasına imkan verir.

2015-ci il mayın 1-də Kəngərli Rayon Uşaq-Gənclər Şahmat Məktəbinin yeni binasının da açılışı olub. Gənclərin əqli inkişafında və onların asudə vaxtlarının səmərəli təşkilində şahmatın əhəmiyyətli rolunu artıq hər birimiz bilirik. Bu mənada, sevindirici haldır ki, muxtar respublikamızda şahmat fənni ümumtəhsil məktəblərinin tədris proqramına daxil edilib. Hazırda şahmat məktəbləri ilə bərabər, ümumtəhsil məktəblərində də həftədə 2 saat olmaqla, şahmat fənni tədris olunur. Kəngərli rayonunun ümumtəhsil məktəblərində təhsil alan şagirdlər şahmatın tədrisinə cəlb olunub. Bu baxımdan ötən il rayonda istifadəyə verilən Uşaq-Gənclər Şahmat Məktəbi şahmatın inkişafında əhəmiyyətli rol oynayır.

Kəngərli rayonunda istifadəyə verilən müasir sosial obyektlər əhaliyə göstərilən xidmətlərin səviyyəsini yüksəltməklə yanaşı, Qıvraq qəsəbəsini də müasir yaşayış məntəqəsinə çevirib. Ötən il avqustun 7-də Qıvraq qəsəbəsində Ticarət-İaşə və Bazar Kompleksinin istifadəyə verilməsi burada yeni iş yerlərinin açılması ilə birlikdə qəsəbənin görkəmini daha da gözəlləşdirib.

Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması istiqamətində kompleks tədbirlər görülür. Naxçıvanın zəngin enerji potensialından səmərəli istifadə olunur və müasir standartlara uyğun elektrik stansiyaları tikilib istifadəyə verilir. Hazırda muxtar respublikada elektrik enerjisi istehsalı ilə yanaşı, onun istehlakçılara etibarlı və dayanıqlı çatdırılması da diqqət mərkəzindədir. Ötən il iyunun 19-da Kəngərli Rayon Elektrik Şəbəkəsinin inzibati binasının və "Qıvraq" yarımstansiyasının istifadəyə verilməsi bu sahədə görülən işlərin tərkib hissəsidir.

### Sənaye və kənd təsərrüfatı yeni inkişaf mərhələsindədir

Müasir dövrdə sosial-iqtisadi inkişafın əsas göstəricilərindən biri də sənayenin və kənd təsərrüfatının inkişafıdır. Bu iki sahədən biri inkişafdan geri qaldığı zaman həlli çətinləşən ciddi problemlər ortaya çıxır. Ona görə də bir sıra qabaqcıl ölkələrdə sənayenin və kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirirlər. Ölkəmizdə,



*Naxçıvan Sənaye Kompleksi*

o cümlədən muxtar respublikamızda bu məsələ daim diqqət mərkəzindədir. Sənayenin şəhərlərlə yanaşı, bölgələrdə qurulması yeni iş yerlərinin yaradılmasına da öz töhfəsini verir. Bu baxımdan Kəngərli rayonunun ərazisində yaradılan və ötən il dekabrın 1-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə açılışı olan Naxçıvan Sənaye Kompleksi həm regionda sənayenin inkişafına töhfə verib, həm də yeni iş yerlərinin açılmasına şərait yaradıb.

Kompleksin ümumi sahəsi 9 hektardır və özündə 4 zavodu birləşdirir. Bunlar gips, gips lövhələr, əhəng və məsaməli beton istehsal edən zavodlardır. Müasir avadanlıqların quraşdırıldığı zavodlarda istehsal prosesini avtomatik idarəetmə və təhlükəsizliyə videonəzarət sistemləri yaradılıb. Kompleks istifadəyə verildikdən sonra muxtar respublikada müvafiq tikinti materiallarına tələbatın yerli istehsal hesabına ödənilməsi təmin olunub. Bu müəssisənin fəaliyyətə başlaması daxili tələbatın ödənilməsi ilə yanaşı, yerli inşaat materiallarının ixracına da imkan verib. Müasir avadanlıqların quraşdırıldığı zavodda il ərzində 150 min ton məsaməli beton istehsal olunacaq.

Kompleksə daxil olan digər zavodlarda da yüksək şərait yaradılıb. Məsələn, əhəng zavodunda istifadə olunacaq yerli xammal Kəngərli rayonundakı Qarabağlar mədənindən gətirilir. Burada hazırlanan məhsullardan inşaat sektorunda, kənd təsərrüfatında, kağız və şüşə istehsalında istifadə ediləcək.

Ana təbiət muxtar respublikamızdan heç nəyi əsirgəməyib. Naxçıvanın münbit, bərəkətli torpağı, gözəl iqlimi, zəngin bitki örtüyü kənd təsərrüfatının bütün sahələrinin inkişafına imkan verir. Kəngərli rayonunda kənd təsərrüfatının inkişafı üçün hər cür imkanlar var. Ötən "Kənd təsərrüfatı ili"ndə bu istiqamətdə böyük işlər görülüb, aqrar sahənin inkişafı təmin edilib. Ən əsası isə əkinlərin suvarılması, suya olan tələbatın ödənilməsi üçün mühüm addımlar atılıb. Ötən ilin aprel ayında Uzunoba Su Anbarından qidalanan, hər birinin uzunluğu 16,2 kilometr olan 720 millimetrlik qoşa təbii axınlı boru xətti, 3 aqreqatlıq nasos stansiyası, 8,7 kilometr təzyiqli boru xətti, 1500 kubmetrlik qəbuledici və 250 kubmetrlik supaylayıcı hovuz istifadəyə verilib. Rayonun Böyükdüz kəndində 2 min hektar torpaq sahəsini suvarma suyu ilə təmin etmək üçün yeni suvarma xətti çəkilib. Xok kəndi ərazisində 300 hektar torpaq sahəsini suvarma suyu ilə təmin edən yeraltı suvarma şəbəkəsi təmir edilərək işə salınıb.

Rayonun digər yaşayış məntəqələrində 2 min 805 metr yeni suvarma və içməli su xətləri çəkilib, 1,7 kilometr uzunluğunda drenaj xətti qazılıb istifadəyə verilib, 1,5 kilometr kollektor, 4,5 kilometr arx və kanallar lildən təmizlənib. Subartezian quyularının və kəhrizlərin imkanlarından həm içməli su, həm də suvarma məqsədilə səmərəli şəkildə istifadə olunur.

Bütün bunlar əkin sahələrinin artırılmasına şərait yaradıb. Ötən ilin payızında 2016-cı ilin məhsulu üçün 3 min 783 hektar sahədə taxıl əkini həyata keçirilib, ondan 648 hektarını arpa, 3135 hektarını isə buğda təşkil edib.

Əhali tələbatının keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin olunmasında anbar təsərrüfatlarının, istixana komplekslərinin yaradılması da böyük əhəmiyyət daşıyır. Hazırda rayon ərazisində 2 istixana kompleksi və 300 ton tutumu olan 1 soyuducu anbar fəaliyyət göstərir.

Kəngərli rayonunda heyvandarlıq, quşçuluq və arıçılıq da diqqətdən kənarda qalmayıb. 1 dekabr 2015-ci il tarixə olan məlumata görə rayonun şəxsi təsərrüfatlarında 9 min 196 baş iribuynuzlu mal-qara, 96 min 245 baş xırdabuynuzlu heyvan, 103 min 214 baş quş, 55 təsərrüfatda 1576 arı ailəsi saxlanılmaqdadır.

Rayon ərazisində ekoloji tarazlığın qorunması istiqamətində də mühüm işlər həyata keçirilib. "Kənd təsərrüfatı ili"ndə payız mövsümü iməciliklər vaxtı muxtar respublikada ilk dəfə olaraq rayonun Böyükdüz kəndi ərazisində 50 hektar püstə bağı salınıb. Püstə bağı üçün nəzərdə tutulan ərazi isə 80 hektardır.

Bundan başqa, ötən ilin yaz və payız aylarında keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 15 hektar sahədə meşəsalma, 14 hektar sahədə isə meşəbərpa işləri görülüb, 24 mindən çox ağac əkilib.

### Rayon sakinləri onlara göstərilən qayğıdan və nümunəvi xidmətdən razıdırlar

Rayona gəlmişkən sakinlərlə də söhbət etdik. Öyrəndik ki, bütün təşkilatlarda əhaliyə nümunəvi xidmət göstərilir, hər kəsin probleminin həllinə həssaslıqla yanaşılır. Sakinlərin işlə təminatı, rabitə xidmətindən istifadəsi, onlara lazımi səviyyədə tibbi xidmətin göstərilməsi diqqət mərkəzində saxlanılır. Təbii ki, bu da əhali tərəfindən yüksək dəyərləndirilir, insanların qurub-yaratmaq əzmini artırır.

Rayon sakinləri Kəngərlidə insan amilinin daim diqqət mərkəzində olduğunu bildirdilər. Onlar qeyd etdilər ki, insana qayğını özündə təcəssüm etdirən bu inkişaf Kəngərli rayonunun bütün kəndlərini əhatə edib, müasir məktəb binaları, səhiyyə və mədəniyyət ocaqları tikilib istifadəyə verilib, yollar abadlaşdırılıb, yeni istehsal müəssisələri yaradılıb, iş yerləri açılıb. Bu il yanvarın 14-də kompleks şəkildə tikinti-quruculuq işləri aparılan rayonun Yurdçu kəndində yeni məktəb binasının, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi bu diqqət və qayğının bariz nümunəsidir. Kənd sakini Mehman Mehdiyev Yurdçunun abadlaşmasından duyduğu sevinci belə ifadə etdi:

– Mənim 70 yaşım var. Hər kəs kimi mən də görürəm ki, muxtar respublikamızda insanlara çox böyük diqqət və qayğı göstərilir. Bütün bunları bizim Kəngərli rayonunda yaşayan insanlar da qədərincə hiss edirlər, qiymətləndirirlər. Bu gün müasir kəndə çevrilən Yurdçunun da siması bu qayğının hesabına əsaslı surətdə dəyişib. İnsan bu gün bu kənddə yaşamaqdan zövq alır. Burada hər cür şərait yaradılıb. Necə deyərlər, kənddə şəhər rahatlığı var.

Sevinirəm ki, Yurdçuda aparılan quruculuq işlərindən sonra Kəngərli rayonu artıq başdan-başa abadlaşan, gözəlləşən rayona çevrilib. Muxtar respublikamızda bütün yaşayış məntəqələrində kompleks tikinti-quruculuq işləri aparılan tək rayon kimi ad qazanıb. Bir də ona sevinirəm ki, bugünkü gənclər yaradılanların, qurulanların qədrini bilirlər. Bilirlər ki, bütün bunlar onlar üçündür, gələcək nəsil üçündür. Bir ağsaqqal kimi dövlətimizin göstərdiyi böyük qayğıya görə minnətdarlığımı bildirirəm.

***... Artıq Kəngərli rayonundan ayrılaraq Naxçıvan şəhərinə doğru yol alırıq. Bu rayondan ayrılarkən şair-publisist Elxan Yurdoğlunun "Bu gözəllik bizim üçün deyilmi?" poemasındakı Kəngərli rayonu ilə bağlı bəndi xatırladım:***

*Soyu qədimdən qədim bir nəsilin adını*
*Daşıyan Kəngərlini – kəngərlilər yurdunu*
*Yaman dəyişən gördüm, başqa donda hər səhər.*
*Heç də heyrət etməyin bir gün olacaq şəhər.*
*Gəlib görənlər bilir, buralar çöllük idi,*
*Hər tərəf kələ-kötür, dərə idi, dik idi.*
*Bəs kimlər dəyişdirir indi bu boz torpağı,*
*Niyə gözə görünmür əvvəlki toz-torpağı.*
*Qısa vaxtda bu qədər binalar tikilirsə,*
*Yolların kənarında ağaclar əkilirsə,*
*Bunlar kimlər üçündür duyub düşünmək gərək,*
*Bizlər üçün deyilmi, bu gözəllik, bu bəzək?!*

***Rayon sakinlərinin arzuları bu gün reallığa çevrilir. Bu gün mərkəz Qıvraq qəsəbəsi ilə birlikdə rayonun bütün kəndləri artıq şəhərləşib.***

**Rauf ƏLİYEV**

Yaddaşlarda yaşayanlar



# İslam Səfərli şeirində Naxçıvan

***Bu gün görkəmli şair İslam Səfərlinin anadan olmasının 93-cü ildönümüdür. O, 1923-cü il fevral ayının 12-də Naxçıvanın Şəkərabad kəndində anadan olmuşdur. İslam Səfərli ilk təhsilini həmin kənddə almış, sonra Naxçıvan şəhərindəki 1 nömrəli məktəbdə oxumuşdur. Müharibə illərində 416-cı atıcı diviziyanın sıralarında şərəfli döyüş yolu keçən İslam Səfərli azərbaycanlıların alman faşizminə qarşı mübarizədə göstərdikləri şücaəti şair və publisist kimi vəsf etmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "İslam Səfərlinin 90 illik yubileyinin keçirilməsi haqqında" 2013-cü il 18 yanvar tarixli Sərəncamında deyildiyi kimi: ***"17 yaşında ədəbi yaradıcılığa başlayan İslam Səfərli böyük bir yaradıcılıq yolu keçmiş, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. İslam Səfərlinin mükəmməl bədii obrazlılığı ilə seçilən poeziyası bitkin vətənpərvərlik nümunəsidir. Nəğməkar şairin poetik nümunələrinə məşhur bəstəkarlarımız tərəfindən 200-ə yaxın mahnı bəstələnmişdir. Bu mahnılar bu gün də öz populyarlığını itirməmişdir. Birbirindən maraqlı poemalar müəllifi kimi Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan İslam Səfərli dramaturq kimi də böyük uğurlar qazanmışdır. Onun pyesləri dəfələrlə Azərbaycan Akademik Milli Dram Teatrında və Naxçıvan Dövlət Musiqili Dram Teatrında səhnəyə qoyulmuşdur. İslam Səfərlinin müxtəlif vaxtlarda qələmə aldığı şeir və poemaları, dram əsərləri, oçerk, novella, libretto və kino ssenariləri, rus və türkdilli klassiklərin əsərlərindən etdiyi tərcümələr onu öz dövrünün böyük ədibi kimi məşhurlaşdırmışdır".***

Tərəddüd etmədən demək olar ki, heç bir sənətkar yaradıcılığında (Bəhruz Kəngərli istisna olmaqla) İslam Səfərli qədər Naxçıvan mövzusuna yer ayırmamışdır. Təkcə bu mövzuda şairin otuzdan çox sayseçmə şeiri vardır ki, o şeirlər qırx-əlli il bundan əvvəl yazılmasına baxmayaraq, bu gün də öz sənət təravətini qoruyub saxlamaqdadır.

Yaradıcılığının ilk illərindən ədəbi ictimaiyyətin, xüsusilə də böyük Səməd Vurğunun diqqətini cəlb edən İslam Səfərlini ədəbiyyata zəngin və tarixi kökləri olan Naxçıvan ədəbi mühiti bəxş etmişdir. Buna görə də Azərbaycanın ayrılmaz parçası olan Naxçıvan onun şeirinin əzəli və əbədi qəhrəmanına çevrilmiş və şair bu mövzuda dərin məzmunlu, böyük sənət yanğılı şeirlər yazmışdır.

İslam Səfərli o sənətkarlardandır ki, onun yaradıcılığında yüksək xəlqiliklə, bəşəri dəyərlərlə yanaşı, milli bağlılıq həmişə aparıcılıq təşkil etmişdir. Şairin məşhur şeirlərindən biri olan "Sənə qurban canım, Azərbaycanım" şeirində bu mövzuda yazılmış bir çox şeirlərdə özünü göstərən quru pafosluq, ucuz şüarçılıq, yeknəsəq və döyənək qafiyələr axtarmaq çox çətindir:

*Torpağın ətrini sinəmə çəkdim,*
*Dodağım gül açdı,*
*Ürəyim çiçək.*
*Xəzər sahilində bir çinar əkdim,*
*Söyüdlər nazlandı*
*Gülümsəyərək.*
*Dəniz mahnısını oxudu sanki,*
*ətəyi ləpəli, qırçınlı Bakı...*
*Kükrədi ilhamım, qaynadı qanım,*
*Sənə qurban olum Azərbaycanım.*

Təkcə bu bir bəndin təhlilinə varsaq, bir daha görərik ki, İslam Səfərli yaradıcılığına yalançı vətənpərvərlik yaddır. Təmiz, aydın, duru Naxçıvan havasının əsrarəngiz gözəlliyini şeirlərinin mayasına qatan şairin poeziyası da duru, saf, bütün zamanlar və oxucular üçün aydındır.

Təbiətində həmişə bir bahar təravəti yaşadan Naxçıvan özlüyündə Tanrı qələmi ilə yazılmış əsrarəngiz gözəlliyə malik olan canlı poeziyadır. Bu poeziyanın təsir gücü İslam Səfərli şeirinin əsas xətlərindən birini təşkil edir. Naxçıvana müraciətlə "çöllərindən keçən mənəm, söz deməmiş keçənmərəm", – deyən şairin yaradıcılığında "Gəlmişəm" şeirinin öz yeri var. Dörd bəndlik bu şeirdə həm Naxçıvanın yerləşdiyi coğrafi məkan, həm də füsunkar təbiəti öz əksini tapır:

*Rübabımı kökləmişəm burda mən,*
*Mənə şeir çələngini bəxş edən*
*Yaraşıqlı bir məkana gəlmişəm.*
*Ovçu kimi mən dolana-dolana,*
*Qalxıb Araz qırağından bu yana,*
*Baba yurdum gözəl Nəqşi-cahana –*
*Ana yurdum Naxçıvana gəlmişəm!*

İslam Səfərli təbiətdən yazanda təbiəti Tanrının bəşəriyyətə bəxş etdiyi bir varlıq kimi qəbul edir, təbiətlə insan arasındakı harmoniyanı ön plana çəkir.

Naxçıvanın dilbər guşələrindən olan Batabat yaylağına həsr edilmiş "Batabat bulağı" şeirində təbiətlə insan fərdiyyəti arasında böyük bağlılıq var.

Sənətin ən böyük uğuru insanlara həyat eşqi aşılamaq, onu həyata bağlamaq missiyasını yerinə yetirməsindədir. Şairin bilavasitə Naxçıvanın qəhrəmanlıq tarixinə həsr etdiyi və dillər əzbəri olan "Mən" adlı şeirində biz həmçinin şair eşqinin, düşüncəsinin bariz nümunəsini görə bilərik:

*Seyrinə çıxmışam elin, obanın,*
*Alıcı bir tərlan balasıyam mən.*
*Bizim parçalanmış Azərbaycanın*
*Araz tək sağalmaz yarasıyam mən.*

*İgidlik yaşadır məğrur insanı,*
*Burda babaların axmışdır qanı.*
*Qədim Naxçıvanın polad qalxanı,*
*Yenilməz Əlincə qalasıyam mən.*

"Gilan şəhəri haqqında ballada" şeirində də Naxçıvanın keşməkeşli tarixindən söz açan şair xəyallar, düşüncələr vasitəsilə dünənin canlı lövhələrini yaddaşlara köçürür:

*Gör nə deyir qərinələr:*
*Viranədir Gilan şəhər.*
*Dərəyə en, təpəyə qalx,*
*Xərabələr qalaq-qalaq...*

*...Hər kərpicdə yazı durur,*
*Çoxu gedib, azı durur.*

Şair Gilan şəhərini xalqımızın minillik mədəniyyətinin daşıyıcısı kimi tərənnüm edir:

*Yer altında nələr-nələr*
*Yatır milyon ildən bəri*
*Min memarın şah əsəri...*

Şairin şeirlərində təbiət diridir, bədəndə ürək döyünən kimi döyünür. O, çiçəkdən, qartaldan, yaxud da dağ kəkliyindən yazanda belə, onlara xalqın milli sərvəti kimi ehtiyatlı, qayğıkeş bir şair ürəyi ilə yanaşır. "Naxçıvanın duzu, qızı, qarpızı", "Badamlı", "Payız meşəsi", "Xal-xal meşəsi", adını çəkdiyimiz "Batabat bulağı" kimi onlarla şeirini nümunə gətirə bilərik ki, bu şeirlər İslam Səfərli sözünün qüdrəti ilə Naxçıvan təbiətinin özü qədər əbədi bir yaşarlıq haqqı qazanıb.

İslam Səfərlinin Naxçıvan təbiəti ilə bağlı şeirlərinin bir çoxunda işlənən yer, bulaq, dağ, meşə, çay adlarını əgər kağız üzərinə köçürmək mümkün olsaydı, Naxçıvanın flora və faunasını əks etdirən bütöv bir xəritə alınardı."Qara yol", "Pətəkli quzey", "Sonsuz quyu", "Badamlı suyu", "Batabat bulağı","Salvartı", "Qonaqgörməz", "Ölən şəhər", "Payız dağı", "Haçadağ", "Payızçay", "Cəhri", "Arpa çayı", "Toğluqaya", "Plovtəpə", "Çınqıllı", "Yelli yurd", "Keçəldağ", "Kələflidağ", "Şahbuz", "Xal-xal", "Əlincə qalası", "Atabəy məqbərəsi", "Əliabad yolu", "Ağrı", "Təndir çeşməsi", "Araz", "Gəlin daşı", "Qızlar bulağı", "Nəqşi-cahan", "Nehrəm", "Düylün", "Vənənd", "Vayxır çeşməsi" və sair kimi Naxçıvanla bağlı yer, dağ, meşə, yurd adlarını nümunə çəkə bilərik ki, onlar İslam Səfərli poeziyasının ayrılmaz tərkib hissəsidirlər.

Şairin qələm dostu yazıçı Əlfi Qasımov İslam Səfərli yaradıcılığının məziyyətlərindən danışarkən yazır: "...Səmimilik, axıcılıq, oynaqlıq, musiqiyə uyarlıq İslam Səfərlinin şeir yaradıcılığını xarakterizə edən vacib əlamətlərdir. Onun şeirlərində səmimilikdən kənar bir hiss, boğazdan yuxarı deyilmiş ifadə, şeirin axarını pozan misra tapmaq çətindir".

İslam Səfərli şeirində Naxçıvan mövzusundan danışarkən bir cəhəti də qeyd etmək lazımdır ki, şair təkcə Naxçıvanın təbiətini, gözəlliklərini, onun dünənini və bu gününü tərənnüm edən şeirlər deyil, eyni zamanda bu torpağın Azərbaycan elminə, mədəniyyətinə, ədəbiyyatına və ictimai həyatına bəxş etdiyi sənətkarlara ithaf etdiyi yaddaqalan şeir nümunələri də yaratmışdır. Böyük Vətən müharibəsinə gedən ilk on üç nəfərin xatirəsinə həsr etdiyi "Onüçlər", "Şərqin şöhrəti" (böyük ədib Cəlil Məmmədquluzadəyə), "Sevib yaşatdı" (Turan Cavidə), "Naxçıvan yadigarı" ("Naxçıvan yadigarı" mənzərə albomunun müəllifi rəssam Bəhruz Kəngərliyə) şeirləri Naxçıvan torpağının elm və mədəniyyətinin qüdrətini göstərən şeirlərdir.

...Şairin Naxçıvanla bağlı adlarını çəkmədiyimiz onlarla şeiri var ki, bu şeirlər sanki Naxçıvan diyarının canlı tərcümeyi-halıdır:

*Mən neylərəm sənsiz görən?*
*Doymaz səndə ömür sürən.*
*Ey İslama könül verən,*
*Düz ilqarlı Naxçıvanım,*
*Xoş baharlı Naxçıvanım.*

Adına Naxçıvan şəhərində küçə, məktəb olan İslam Səfərli yaradıcılığı da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, 2013-cü ildə görkəmli şairin 90 illik yubileyi geniş qeyd edilib.

**Xanəli KƏRİMLİ**
**şair-publisist**

***Adətən, cəmiyyət özünün ən çətin problemlərini həll etmək üçün özünə qayıtmalı, daxili aləmini, milli-mənəvi dünyasını təzələməli olur. İlk növbədə, insan resurslarının təkmilləşdirilməsi üçün potensial imkanlar səfərbər edilir. Gənc nəslin yetişdirilməsi, geniş mənada kamil vətəndaş tərbiyəsi böyük uğurların bünövrəsini qoyur. Müasir dünyamızın inkişaf dinamikasına xas olan bu məntiq yalnız təhsil müstəvisində böyük uğurlarla nəticələnir.***

# Kurikulum yeni təhsil sistemidir

Təbii ki, hazırkı dövrün təhsil sistemi – kurikulum özünün koqnitiv (idraki) xarakteri ilə insanın şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

Bu gün bizim qarşımızda çox mühüm vəzifələr durur. Belə ki, qlobal dünyanın insanları kimi özümüzün milli varlığımızı saxlamaqla yanaşı, həm də ümumi düşüncə tərzinə, inteqrativ təfəkkürə sahib olmalı, inkişafı daha geniş miqyasda görməyi bacarmalıyıq. Əks halda, dünyada aparılan beynəlxalq şəxsiyyəti qiymətləndirmənin tələbləri bizim üçün əlçatmaz bir səviyyəyə çevrilər.

Ulu öndər Heydər Əliyev Azərbaycan təhsilinin inkişaf istiqamətlərini müəyyənləşdirərək 15 iyun 1999-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramını təsdiq etmişdir. Bununla əlaqədar olaraq həmin il iyunun 29-da Azərbaycan hökuməti ilə Dünya Bankının Beynəlxalq İnkişaf Assosiasiyası arasında "İnkişaf üçün kredit haqqında" saziş imzalanmış və bu sənəd dövlət başçısının sərəncamı ilə təsdiq edilmişdir.

1999-cu ildə – yəni islahat proqramı qəbul olunduqdan sonra yeni iş qaydaları, prosedurları üzrə zəruri bilik və bacarıqları formalaşdırmaq, kadr hazırlığını təmin etmək, digər təşkilati işləri həyata keçirmək kimi məsələlərin həllinə başlanmışdır. ABŞ, İngiltərə, İsrail, İtaliya, Finlandiya, İsveç və digər inkişaf etmiş ölkələrin təcrübələri öyrənilmişdir. Bu sahədə həyata keçirilmiş tədbirlərin əhəmiyyəti ondan ibarətdir ki, ölkəmizin təhsil işçiləri ümumi təhsil sahəsində qabaqcıl dövlətlərdə ümumtəhsilin məzmununa, şagirdlərin qiymətləndirilməsinə verilən tələblərlə tanış olmuş, gələcək inkişaf yollarının aydın təsəvvür edilməsinə hərtərəfli imkanlar yaranmışdır.

XX əsrin sonları və XXI əsrin əvvəllərinədək ənənəvi təhsil alanlara bir obyekt kimi yanaşılmış, təhsildə avtoritar idarəetmə üsullarına üstünlük verilmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra demokratik, müstəqil ölkənin əsas prinsiplərinə uyğun yeni, müasir tələblərə cavab verən təhsil sisteminin qurulmasına başlanmışdır. Ənənəvi təhsil sistemi artıq öz dövrünü başa vurmuş, yerini yeni kurikulum təhsil sisteminə vermişdir.

Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, dünya təhsil sisteminə inteqrasiya, informasiya əsrinin tələbləri, təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması, mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi kurikulum təhsil sisteminə keçidi şərtləndirən əsas amillərdir.

"Kurikulum" latın sözü olub, lüğəti mənası "kurs", "elm" deməkdir. Bu söz ingiliscə, rusca lüğətlərdə "təlim kursu", "tədris planı", "proqram" kimi izah olunur. 1876-cı ildən etibarən ondan bir termin kimi istifadə olunmağa başlanmışdır. İlk fənn kurikulumları 1918-ci ildə ABŞ-da meydana gəlmişdir. Ötən əsrin 70-ci illərindən kurikulum nəzəriyyəsinin formalaşması başa çatmışdır. Azərbaycanda isə bu termin 90-cı illərin sonlarından başlayaraq istifadə olunmaqdadır.

Beləliklə, Azərbaycan təhsil sistemində milli və ümumbəşəri dəyərlər nəzərə alınaraq ilk dəfə "Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu" hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli Qərarı ilə "Azərbaycan Respublikasında Ümumtəhsil Konsepsiyası (Milli Kurikulumu)" təsdiq edilmişdir. Bu sənəd çərçivə sənədi olub, ümumtəhsil üzrə məzmun standartlarını və təlim nəticələrini, pedaqoji prosesin təşkili, təlim nailiyyətlərinin qiymətləndirilməsi və monitorinqi üzrə əsas prinsipləri əhatə edir.

2008-ci ildə I siniflər kurikulumun tələblərinə uyğun təlim prosesinə başlamışlar. Növbəti illərdə isə digər siniflər bu təhsil sisteminə qoşulmuşdur. 2015-ci ildən isə VIII siniflərdə kurikulumun tətbiqi davam etdirilir.

Yeni fənn kurikulumları özünün səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. Fənn kurikulumları nəticəyönümlü xarakterə malikdir. Kurikulum təhsil sistemi hər bir fənn üzrə məqsəd, vəzifə, məzmun, texnologiya və qiymətləndirmə məsələlərini əhatə edir.

Kurikulumların Naxçıvan Muxtar Respublikasında öyrənilməsini və tətbiqini əməli olaraq həyata keçirmək məqsədilə Naxçıvan Müəllimlər İnstitutunda beş ilə yaxındır ki, Kurikulum Mərkəzi fəaliyyət göstərir. Bu mərkəzdə kurikuluma, fəal interaktiv təlim metodlarına, təlim texnologiyalarına aid olan 5000-ə yaxın elektron variantında informasiya bankı yaradılmış, müxtəlif tədris materialları, slaydlar, fənlərin tədrisinə aid metodiki vəsaitlər toplanmışdır. Tədrisin keyfiyyətinin yüksəldilməsinə birbaşa təsir edən bu materiallar muxtar respublikamızın müəllimlərinə kurslar, seminarlar, treninqlər, elmi-praktik konfranslar keçirilərkən təqdim olunur.

Naxçıvan Müəllimlər İnstitutu muxtar respublikanın ümumi təhsil məktəblərinin əksəriyyətində – Naxçıvan şəhərində, Babək, Şərur, Ordubad, Culfa, Şahbuz, Sədərək rayonlarında ardıcıl olaraq kurikulumun tətbiqi məsələlərinə dair elmi-praktik konfranslar, seminarlar keçirir. Keçirilən bu konfransların müsbət tərəfi ondadır ki, müəllimlər daha çox onları maraqlandıran, ehtiyac duyduqları, lazım olan məsələlərə dair geniş şəkildə məlumatlar alırlar. Açıq suallar, müzakirələr, dialoqlar müəllimlərin nəzəri və praktik təcrübələrinin yüksəldilməsində mühüm rol oynayır.

Hafizə məktəblərindən təfəkkür məktəblərinə keçid dərin maraqlar doğurur. Növbəti məqaləmizdə bu barədə söhbət açacağıq.

Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələrə bağlı keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"Təhsildə biliklərin mexaniki şəkildə əzbərlənməsinə yox, təhlilə, məntiqi təfəkkürə əsaslanan istiqamətlərin inkişafına çalışmalıyıq. Şagird və tələbələrin sərbəst mühakimə yürütmək və təhlil aparmaq bacarıqlarına, analitik nəticə çıxarmaq qabiliyyətlərinə üstünlük verməliyik".***

**Oruc HƏSƏNLİ**
*pedaqoji elmlər doktoru, professor*

## Sərnişin daşınmasını yerinə yetirən sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilib



*Tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin aparat rəhbəri Anar Babayev çıxış edib.*

Bildirilib ki, muxtar respublikamızda digər sahələrlə yanaşı, avtomobil nəqliyyatı sahəsində də əsaslı islahatlar aparılıb və müsbət nəticələr əldə edilib. Bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınıb, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilib. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblər səviyyəsində qurulmasına əlverişli şərait yaradıb. Mövcud imkanlardan səmərəli istifadə olunması da diqqət mərkəzində saxlanılıb, avtomobil nəqliyyatı ilə sərnişin daşınmasını yerinə yetirən sürücülərin intizam qaydalarına necə əməl etmələrini yoxlamaq məqsədilə bir sıra reydlər keçirilib, qanun pozuntusuna yol verən sürücülər saxlanılaraq cəzalandırılıblar. Vergi borcunu ödəməyən, qanunsuz taksi fəaliyyəti ilə məşğul olan sürücülərə qeyri-qanuni sərnişindaşıma ilə məşğul olmamaq haqqında xəbərdarlıqlar edilib, tabe olmayan sürücülər Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə keçirilən reydlərdə saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Vurğulanıb ki, qarşıya qoyulan başlıca vəzifə avtomobilləri vaxtında texniki müayinədən keçirməklə onların qış mövsümündə saz vəziyyətdə istismar olunmasını təmin etməkdən ibarətdir. Bu mühüm əhəmiyyətli sahə də diqqət mərkəzində saxlanılıb, ayrı-ayrı rayonlarda qış mövsümünə hazırlığın vəziyyəti ilə əlaqədar reydlər keçirilib, avtonəqliyyat vasitələrində aşkar olunan nöqsan və çatışmazlıqlar vaxtında aradan qaldırılıb.

Nazirliyin Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsinin müdiri Elxan Novruzov bildirib ki, sərnişin və yük daşıyan fiziki, eləcə də hüquqi şəxslərin fəaliyyətinə nəzarət məqsədilə müxtəlif reydlər aparılıb, nəticədə, qeyri-qanuni sahibkarlıq fəaliyyəti göstərən avtonəqliyyat vasitəsi sahibləri aşkar olunub, intizama tabe olmayanlar haqqında cəza tədbiri görülmək üçün müvafiq orqanlara məlumatlar göndərilib.

“Yol-nəqliyyat kompleksinin yenidən qurulması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, şəhər infrastrukturunun mühüm sahəsi sayılan sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün hər cür şərait yaradılıb”, – deyən Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin rəis əvəzi İlkin Məmmədov qeyd edib ki, son illər sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib. Muxtar respublika paytaxtında şəhərdaxili və şəhərətrafı yol yataqlarının genişləndirilməsi, yollara keyfiyyətli asfalt örtüyünün salınması nəqliyyat vasitələrinin sərbəst hərəkətinə, sərnişinlərin rahat daşınmasına əlverişli şərait yaradıb. Şəhərimizdə sərnişindaşıma işini nizamlamaq, əhalinin rahatlığını təmin etmək, eləcə də xidmətin səviyyəsini daha da yaxşılaşdırmaq məqsədilə kompleks tədbirlər həyata keçirilib, Naxçıvan Şəhər Nəqliyyat İdarəsi üçün yeni inzibati bina və avtobus parkı istifadəyə verilib, sərnişindaşıma xidmətinin günün tələbləri səviyyəsində qurulması üçün daha müasir və iritutumlu avtobuslar alınıb gətirilib. Hazırda Naxçıvan şəhərində hər gün ayrı-ayrı marşrutlar üzrə müxtəliftutumlu avtobus və mikroavtobuslar xəttə çıxarılır. 2015-2016-cı ilin payız-qış mövsümünü uğurla başa vurmaq üçün həyata keçirilən tədbirlər öz bəhrəsini verib, sərnişinlərin vaxtında və təhlükəsiz mənzil başına çatdırılmasına, avtomobillərin maneəsiz hərəkətinə hərtərəfli şərait yaradılıb. Yaddan çıxarmaq olmaz ki, sürət həddini aşma, sürücülərin diqqətsizliyi və piyadaların keçidlərdən düzgün istifadə etməməsi avtomobil yollarında qəza halları yaradır, bəzən də ağır yol-nəqliyyat hadisəsi ilə nəticələnir. Bu da insanların sağlamlığına xəsarət yetirir və ya həyatına son qoyur. Gəlin özümüzü qorumaq və başqalarının həyatına təhlükə yaratmamaq üçün yol hərəkəti qaydalarına ciddi əməl edək.

Üç gün davam edən seminar-müşavirədə 200-dən çox sürücü iştirak edib, onları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Çəkilən zəhmətin bəhrəsi

*“Xalaoğlu” Kəndli Fermer Təsərrüfatında keçirdiyimiz bir gün*

*(Oçerk)*

*Əhalisinin 70 faizi kəndlərdə yaşayan muxtar respublikamızda insanların əsas məşğuliyyəti olan əkinçiliyin və heyvandarlığın inkişafına hərtərəfli şərait yaradılıb. Yaradılan şəraitdən, göstərilən dövlət qayğısından bəhrələnməklə təsərrüfatını daha da genişləndirən, ətrafına on-on beş nəfər kəndlisini toplayıb, onlara iş yeri açan fermer təsərrüfatlarının sayı ilbəil artır. Daxili bazarı keyfiyyətli yerli ərzaq məhsulları ilə təmin edən geniş təsərrüfat sahiblərindən, sadə zəhmət adamlarından biri haqqında oçerk yazmaq üçün bir balaca araşdırma apardım. Tanıdığım sahibkarlardan, iş adamlarından soraqlaşdım. Rafiq Əliyevlə görüşməyi məsləhət gördülər.*

Bir neçə dəfə zəngləşib görüşmək üçün vaxt təyin etsək də, gah onun, gah da mənim digər işlərimizlə əlaqədar olaraq görüşə bilmirdik. Axır ki, Rafiq Əliyev özü münasib vaxt təyin etdi, – bazar günü görüşək, sizin istirahət gününüz olsa da, üzrlü hesab edin, bizim iş vaxtımızdır. Elə ünvanı da özü nişan verdi. Naxçıvan-Culfa magistralının kənarında yerləşən Modul Elektrik Stansiyasını keçib, sağ qol üstə gəlin. Nehrəm kəndinin girişində, aptekin yanında kimdən soruşsanız, fermanı göstərəcəklər, – dedi. Razılaşdığımız kimi bazar günü getdik Nehrəmə.

Aptekin yanında dayanan cavanlardan, – Rafiq Əliyevin ferması hansı tərəfdədir, – deyə soruşduq.

– Hansı Rafiqin? – deyə təəccüblə üzümə baxdılar. Bu vaxt yanımızdan ötən ağsaqqal nabələd olduğumuzu görüb, – qonaqlar nə istəyir? – deyib cavanlara baxdı. Rafiqi soruşurlar, fermer Rafiqi. Ağsaqqal bir az fikirləşib, hə, Cəfəralı həkimin oğlu “Qara”nı deyirlər. Odur özü gəlir, – deyib yaxınlaşan “Hyundai” markalı maşını göstərdi. Əl edib saxlatdılar. Qonaqların var, – deyib bizi göstərdilər. Hal-əhval tutduq.

– Bilirdim çətinlik çəkəcəksiniz. Ona görə özüm gəldim qarşılamağa.

– Yəqin Günəşin altında daha çox işləyirsiniz. Kimdən soruşduq, sizi Rafiq Əliyev kimi tanımadılar. Sizi “Qara” deyə çağırdılar.

Güldü.

– Bilirsiniz, Nehrəm böyük kənddir. Burada 16 mindən çox əhali yaşayır. Yüzdən çox Rafiqi, Məhəmmədi, Həsəni, Hüseyni var. Ona görə də hər kəsin adının qabağına hansı sualı qoyub, işinə, peşəsinə, görünüşünə uyğun bir ad əlavə olunur. Bu, böyük kəndlərdə yazılmamış qanundur. Elə biri mən. Anadangəlmə qaraşın olduğum üçün adımı “Qara” deyə çağırırlar.

Yaxınlıqdakı binaları göstərib, bu da bizim ferma, – dedi. Fermanı gəzdik. Binalarda mal-qaranın, davarların, buzov və quzuların saxlanılması, bəslənilməsi üçün ayrı-ayrılıqda bölmələr yaradılıb.

Qış üçün yaxşı yem də tədarük etmisiniz...

– Öz əkin sahələrimizdən tədarük etmişik. Şükür, ötən il də yaxşı oldu. 25 hektar sahədə taxıl, 15 hektar sahədə yonca, 2 hektar sahədə isə qarğıdalı əkmişdik. Hektardan 30 sentner taxıl götürüb, elə bir yerdən kilosu 30 qəpikdən təhvil verdik. Pulumuzu da nağd ödədilər. Otu, samanı da kiplədib kifayət qədər qaba yem ehtiyatı yaratmışıq. Qarğıdalını da üyüdüb yığmışıq anbara. Düzdür, bu, yetməz. Qalan ehtiyacı da Naxçıvan şəhərində istehsal olunan qarışıq qüvvəli yem hesabına ödəyirik. İzafı xərcə yol vermirik. Hər il olduğu kimi, bu il də payızda istər iribuynuzlu, istərsə də xırdabuynuzlu ətlik heyvanları “Bərəkət Ət Məhsulları Kompleksi”nə təhvil verdik. Hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşuq. Kəndli “Naxçıvan Aqrolizinq” vasitəsi ilə güzəştli qiymətlərlə müasir kənd təsərrüfatı texnikaları və mineral gübrələrlə təmin edilir. Suvarma suyuna olan tələbat da vaxtlı-vaxtında ödənilir. Torpaqlar əkilib- becərilir. Sahələrdə yetişdirilən məhsulların alıcısı da, necə deyərlər, başının üstündədir. Torpağın sahibinə çevrilən kəndlinin torpağın əkilib-becərilməsi, yetişdirilən məhsulun vaxtında toplanılması və satışı ilə bağlı heç bir problemi yoxdur. Bu, bizi çox sevindirir, həvəsləndirir, təsərrüfatı daha da genişləndirməyə sövq edir.








Sonra yaxınlıqdakı tikilini göstərib, – bu da yeni istehsal sexidir. Bu il istifadəyə verdik, – deyib sexə də baxmağı məsləhət gördü.

Türkiyə istehsalı olan texnoloji avadanlıqlarla təmin edilmiş sexdə texnoloji proseslərə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Burada istehsal olunan qatıq, ayran, kərə yağı 200-250, 300 qramlıq, 0,5 və 1 kiloqramlıq, nəfis tərtibatla bəzədilmiş taralarda “Xalaoğlu” əmtəə nişanı ilə satışa çıxarılır.

– Alıcı probleminiz yoxdur?

– Şükür, daimi müştərilərimiz var. Məhsullarımız fermer təsərrüfatı üçün aldığımız “Hyundai” markalı soyuducu kamera ilə təmin olunmuş yük avtomobilləri ilə sifarişə uyğun olaraq ayrı-ayrı ticarət obyektlərinə vaxtında çatdırılır.

İstehsal sexindən çıxıb söhbətləşə-söhbətləşə fermada yerləşən ofisə oxşar ikimərtəbəli binaya yaxınlaşdıq. Birinci mərtəbədə işçilərin, ikinci mərtəbədə isə onun otağı yerləşir.

Çay süfrəsi arxasında söhbətimizi davam etdiririk. Düzü, nədənsə yaşı ilə gördüyü işlər, yaratdığı fermer təsərrüfatı arasında çox böyük fərq olduğunu düşündüm.

– Fermer təsərrüfatınız atadan qalma miras üzərində qurulub, yoxsa Sahibkarlığa Kömək Fondundan verilən kreditlə?

– Yox, heç biri ilə. Atam tanınmış stomatoloq olub. Şəhərdə işləyirdi. Təsərrüfatla heç bir əlaqəsi olmayıb. Elə məni də diş texniki görmək istəyirdi. Bu sənəti də az-çox öyrətmişdi. Yaxşı da gün-güzəranımız var idi. 90-cı illərdə, onsuz da ağır olan zamanda ailəmizə daha bir ağır zərbə dəydi. Atam dünyasını dəyişdi. Ailədə iki qardaş, bir bacı idik. Böyüyü də mən idim. O vaxt 10 yaşım var idi. Ağır xəstəlikdən əziyyət çəkən anamın yanına düşüb onu müalicə etdirmək üçün xəstəxanaları dolaşdıq, atadan qalan nə var idisə xərclədik. Müalicəsi mümkün olmadı. Atamdan üç il sonra anam da dünyasını dəyişdi.

Söhbətə fasilə verdi, sonra da stolun üstündəki əl dəsmalını götürüb gözlərini sildi. Bir azdan titrək səslə söhbətinə davam etdi.

– Ata qayğısı, ana nəvazişindən məhrum üç körpə qaldıq evdə, içi eşiyindən fərqi olmayan buz kimi evdə. Üç çörək almaq üçün şəhərə gedir, səhərdən axşamadək dəmiryol vağzalının yaxınlığında yerləşən çörək zavodunun qarşısında uzun-uzadı növbədə dayanır, aldığım çörəyi də marşrut avtobusu işləmədiyindən piyada gələrək çatdırırdım evə. Evdə də çox zaman zülmət olurdu. Fasilə ilə verilən elektrik enerjisindən qızdırıcı kimi istifadə etdiyimizdən transformatorlar sıradan çıxır, günlərlə işıqsız qalırdıq. Təbii qaz da ki, ümumiyyətlə, yox idi.

O dövrdə ölkədə ağız deyəni qulaq eşitmirdi. Başının üstündə böyük portreti göstərərək, – Millət Atasının Naxçıvana dönməsi xalqı düçar olduğu bəlalardan xilas etdi. Torpaq sahibinə – kəndliyə verildi. Mən də bizim ailəyə çatan pay torpaqlarını əkir, qazandığım qəpik-quruşla bir-iki quzu və buzov alıb saxlayırdım. Dolanışıq üçün başqa adamların da torpaqlarını əkib-suvarırdım. Bax beləcə, indiki fermer təsərrüfatını yaratdıq. Bayaqdan kənarda oturub söhbətimizə qulaq asan, bəzən də qəhərlənən, işçi paltarında olan oğlana baxaraq, – Cəfəralı, başımız qarışdı söhbətə, çaylarımız soyudu. Bunları təzələyin, – dedi. Sonra da işçi zənn etdiyimiz cavan oğlanı göstərərək, – oğlumdur, atamın adını daşıyır. Türkiyədə “Giresun” Universitetində oxuyur. Gələcəyin iqtisadçısıdır. Tətilə gəlib. Dedim qoy fəhlə paltarı geyib təsərrüfatla məşğul olsun. Biz bu gün varıq, sabah yox. Axı gələcəyin təsərrüfat başçısı olacaq.

İşgüzar, vətənpərvər gəncliyə inanan, gələcəyə nikbin baxan və zəhmətlə yoğrulmuş bir ömür yaşayan Rafiq Əliyevə uğurlar arzulayıb ondan ayrıldıq.

Üz tutduq şəhərə. Elə son illər tikilib istifadəyə verilən bir-birindən yaraşıqlı fərdi yaşayış evlərini, müasir memarlıq üslubu ilə gözoxşayan inzibati və sosial obyektlərin yaratdığı ecazkar mənzərəni, yenicə istifadəyə verilən dairəvi avtomobil yolunu və yol kənarlarında sıralanan elektrik dirəklərindən asılmış sayrışan ulduzları xatırladan elektrik lampalarından süzülüb gələn müstəqillik işığında müasirləşən, yeniləşən Nehrəm kəndini seyr edə-edə.

Yazı çapa hazırlanarkən öyrəndik ki, Rafiq Əliyevə 2015-ci ilin yekunlarına görə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, İqtisadiyyat nazirliklərinin və Sahibkarlar Konfederasiyasının təşkilatçılığı ilə keçirilən “Ən fəal işəgötürən” nominasiyası üzrə müsabiqənin qalibi kimi diplom və plaket təqdim edilib.

Biz də redaksiya heyəti adından göstərilən dövlət qayğısından bəhrələnməklə fəaliyyətini ildən-ilə genişləndirən sahibkara uğurlar arzulayırıq.

**✍ Kərəm HƏSƏNOV**

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 37, mənzil 50-də yaşayan Qəhrəmanov Abbas Əli oğlunun adına olan 5407 inventar nömrəli texniki pasport və 02/127 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 127